# *Görübən gəlirəm mən bu dünyanı*

***Tanınmış şair-publisist Faiq Balabəylinin 60 illik yubileyi və "Dənizçi həyatı" kitabının təqdimat mərasimi keçirildi.***





Yaxın günlərdə Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda tanınmış şair Faiq Balabəylinin 60 illik yubileyi və "Dənizçi həyatı" kitabının təqdimat mərasimi keçirildi.

Tədbirin aparıcısı, AYB-nin Beynəlxalq məsələlər üzrə katibi, şair-tərcüməçi, esseist Səlim Babullaoğlu Faiq Balabəylinin yaradıcılığının məziyyətlərindən danışdı. O, qeyd etdi ki, yubilyarı 25 ildən çoxdur ki, tanıyır, elə o vaxtdan da onun imzasını həmişə diqqətdə saxlayır.

AYB-nin sədr müavini Rəşad Məcid yubilyarı rəhbərlik adından təbrik edəndən sonra, AYB katibliyinin qərarı ilə F. Balabəylinin təltif edildiyi "Əhməd Cavad" fəxri diplomu ona təqdim edildi.

Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı Faiq Balabəylinin poeziyası, nəsri, publisistikası haqqında danışdı və hazırda dənizlə bağlı ədəbi nümunələrin tək müəllifi olduğunu bildirdi.

Sonra AYB katibləri Elçin Hüseynbəyli, İlqar Fəhmi, şair və yazıçılardan Vasif Süleyman, Qəşəm Nəcəfzadə, İbrahim İlyaslı, Hüseyn Sözlü, Narıngül Nadir, Aləmzər Sadıqqızı, İbrahim Rüstəmli, Xatirə Rəhimbəyli, Natiq Muxtarlı, Nəzirməmməd Zöhrablı, Mina Rəşid, Lilpar Cəmşidqızı, Təranə Məmməd, Sevinc Elsevər, BDU-nun müəllimi, alim Şəfiqə xanım Həbibova, Tahir Məmmədli, Aləm Kəngərli, Faiqin oxucuları, iş yoldaşlarından Muxtar Axundov, Məmmədov, Hüseynov, Ataş Cavadov, Xoşgün Əzimov, Cavanşir Rəcəbli, Fərhad Allahverdiyev, Rita Rzaquliyeva, Asif Orucov, Hidayət Atakişiyev, Bafadar İbrahimli və başqaları çıxış edərək Faiq Balabəyli yaradıcılığının fərqli tərəflərindən danışdılar, yubilyarl təbrik etdilər.

Tədbirin sonunda Faiq Balabəyli çıxış edərək iştirak edən hər kəsə minnətdarlığını bildirdi.

**Tural BALABƏYLİ**